# Erməni terrorizmi barədə kitabın təqdimat mərasimi olmuşdur

*Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu əhalinin maarifləndirilməsi, ictimai-siyasi proseslərin mahiyyətinin izahı istiqamətində bir sıra tədbirlər həyata keçirir. Bu tədbirlərdən biri də ölkə paytaxtında keçirilmiş Bakı Beynəlxalq Humanitar Forumunun xarici ölkələrdən olan iştirakçılarının yerli ziyalılarla görüşlərinin təşkilidir.*





Bilik Fondunun dəstəyi ilə oktyabrın 27-də Nic qəsəbəsində Forum iştirakçısı, Rusiya tarixçisi və siyasi analitiki Oleq Yuryeviç Kuznetsovun «XX əsrdə transmilli erməni terrorizmi» tarixi kriminoloji monoqrafik kitabının təqdimatı keçirilmişdir.

Qeyd edək ki, monoqrafiyanın müəllifi Oleq Kuznetsov beynəlxalq terrorizm və erməni terrorizmi ilə bağlı məsələlərin araşdırılması üzrə MDB məkanında tanınmış mütəxəssislərdən biridir. Uzun müddət Ermənistan—Azərbaycan münaqişəsinin başlama səbəblərini, Dağlıq Qarabağda erməni terrorizminin mahiyyətini, ermənilər tərəfindən milliyyətcə azərbaycanlı olan dinc əhaliyə qarşı törədilən cinayətləri araşdırmış, bu barədə həm Rusiyada, həm də Azərbaycanda olan arxiv və məhkəmə materiallarından istifadə etmişdir. Ümumiyyətlə, müəllif monoqrafiyada erməni terrorizmi nəticəsində baş vermiş hadisələrin real təsvirini yaratmağa nail olmuşdur.

Oleq Kuznetsov tədbirdəki çıxışında kitabın yazılması zərurətindən danışaraq erməni terrorizminin ümumbəşəri bəlaya çevrildiyini, dünyanın əksər terror təşkilatları ilə sıx əlaqədə olduğunu və bu terrorların təşkilində erməni-qriqoryan kilsələrinin müstəsna xidmətləri olduğunu və bilavasitə onlara rəhbərlik etdiyini diqqətə çatdırmışdır.

Tədbirdə ziyalılar, ictimaiyyət nümayəndələri və qəsəbə məktəblərinin yuxarı sinif şagirdləri iştirak etmişlər.

Tədbirdən sonra Oleq Kuznetsov «Çotari» udi-alban pravoslav kilsəsinə gəlmiş, burada qəsəbə sakinləri ilə xatirə şəkli çəkdirmişdir.

✍ **Varis YAQUBOV.**

📷 **S. Umuyev.**

# Bir görüşün unudulmaz təəssüratları

Bu yaxınlarda yolumuz respublikamızın səfalı guşələrindən biri Balakən rayonuna düşmüşdü. Səfərimiz zamanı 1964-1978-ci illərdə Qəbələdə (əvvəlki Qutqaşında) rayon partiya komitəsinin birinci katibi vəzifəsində işləmiş Abdulla Bullayevlə görüşdük. Görüşdə 85 yaşı olan bu müdrik insan 14 il rəhbərlik etdiyi Qəbələ rayonunun sadə, işgüzar və bu gün də onu unutmayan adamları ilə görüşündən çox məmnun olduğunu söylədi. Sonra doğma Azərbaycanımızın, o cümlədən Qəbələnin inkişaf yollarından söhbət düşdü. Xüsusilə Abdulla Bullayevin yüksək səviyyəli siyasi rəhbər, bacarıqlı dövlət xadimi Heydər Əliyevin Azərbaycana, Azərbaycan xalqına rəhbərliyi ilə bağlı unudulmaz xatirələrini bizimlə bölüşməsi söhbətmizi daha maraqlı məcraya yönəltdi. 3 saatdan artıq çəkən görüşün necə gəlib keçdiyini belə hiss etmədik.

Biz müasir Qəbələnin inkişaf yollarını əks etdirən foto-albomu və 1969-cu ildə həmyerlimiz, əməkdar müəllim mərhum Məhəmməd Qəribovun 70 illik yubileyində o vaxt birinci katib vəzifəsində işləyən 38 yaşlı Abdulla Bullayevin çıxışı yazılmış diski hədiyyə olaraq ona təqdim etdik. Abdulla müəllimin hazırda Balakən rayonunda həkim işləyən oğlu İslam Bullayev atasının bu ahıl yaşında onunla görüşə gəldiyimiz və onu ötən bu uzun illər ərzində unutmadığımız üçün bizə səmimi minnətdarlığını bildirdi.

Görüşümüzün sonunda Abdulla Bullayev bütün qəbələlilərə, onu tanıyanlara səmimi salamlarını, yüksək ehtiramını bildirməyi bizdən xahiş etdi və dedi ki, o da bu gün Qəbələnin işgüzar, səmimi, sağlam düşüncəli, qonaqpərvər, mehriban insanlarını unutmur, onların hamısına qəlbən minnətdardır.

**Görüş iştirakçıları:**
**F. Əzizli, F. Babayev, F. Əkbərov, Y. Ramazanov, V. Əzimov, N. Babayev.**

# Tədbir keçirildi

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası «Azərbaycan 2020 gələcəyə baxış İnkişaf Konsepsiyası»na uyğun olaraq Qəbələ Mədəniyyət Mərkəzində tədbir keçirmişdir. 28 oktyabr 2016-cı il tarixdə baş tutan tədbirə rayonda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının, ictimaiyyətin nümayəndələri dəvət olunmuşdu.



Yığıncaqda iştirak edən Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının icraçı direktoru Fərasət Qurbanov dövlətlə ictimai təşkilatlar arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və ictimai həyatın müxtəlif sahələrində mövcud olan probolemlərin alternativ həlli yolları ilə bağlı QHT layihələrinin hazırlanması metodları barədə geniş çıxış etmişdir.

Tədbirin mövzusu ilə əlaqədar iştirakçılarla fikir mübadiləsi aparılmış, onları maraqlandıran suallar cavablandırılmışdır.

✍ **Yaşar NƏZİROV,**
**Qəbələ RİH- nin ictimai siyasi və hümanitar məsələlər şöbəsi müdirinin müavini.**

# Doğma ölkəmizdə

## Düşünülmüş iqtisadi siyasət dayanıqlı inkişafa aparır

Qlobal maliyyə-iqtisadii böhranın ciddi təsirlərinə baxmayaraq Azərbaycanda aparılan, düşünüşlmüş və reallığa əsaslanan siyasət dayanıqlı sosial-iqtisadi inkişafl təmin edir. Belə ki, Dövlət Statistika İdarəsinin verdiyi məlumata görə ilin 9 ayında ölkədə istehsal qeyri-neft sektorunda 3,6 faiz, kənd təsərrüfatında isə 2,4 faiz artmışdır. Nəqliyyat və rabitə xidməti sahələrinin inkişafında da müsbət meyillər qeydə alınmışdır. İqtisadiyyatın şaxələndirilməsi, 2020-ci ilədək bütün sahələrdə sürətli modernləşmə yoluna keçilməsi ölkədə ümumi daxili məhsulun 2 dəfəyədək artırılmasını nəzərdə tutur.

## Əlverişli biznes və nəticələr

Ölkədə əlverişli biznes mühitinin formalaşması istiqamətində aparılan islahatlar müsbət nəticələrə gətirib çıxarır. Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliyinə görə dünyada 37-ci yerə layiq görüb. Bu, o deməkdir ki, qlobal böhran vəziyyəti davam etsə də Azərbaycan bu istiqamətdə yüksək qiymət alıb. MDB məkanında da ölkəmiz öz liderliyini qoruyub saxlayıb. Dünya Bankı isə 190 ölkə arasında biznes mühitini qiymətləndirən zaman Azərbaycan 65-ci pillədə qərarlaşıb, Ölkəmiz eyni zamanda dünyada daha çox islahat aparan 29 ölkədən biridir.

Ötən il ərzində ölkədə aparılan uğurlu islahatlar nəticəsində Azərbaycan öz mövqeyini daha da möhkəmləndirib. Belə ki, «Biznesə başlama» göstəricisi üzrə 5-ci (əvvəlki hesabatda 7-ci) «Kiçik investorların maraqlarının qorunması» göstəricisi üzrə 32-ci (əvvəlki hesabatda 36-cı), xarici ticarətin aparılması göstəricisi üzrə isə 83-cü (əvvəlki hesabatda 94-cü) «Elektrik təchizatı şəbəkələrinə qoşulma göstəricisi üzrə 105-ci (əvvəlki hesabatda 110-cu) pilləyə yüksəlib.